№ 158 (4458) 06 oktyabr 2020-ci il

# Prezident İlham Əliyev düşmənin sülhə iradəsizliyini açıb göstərdi

## Azərbaycana düşmən kəsilmiş Ermənistan acizliyindən rəzilliyə əl atır

Oktyabrın 2-də dünyaca məşhur "Əl-Cəzirə" televiziya kanalına müsahibə verən Azərbaycan Prezidenti hazırda Cənubi Qafqazda gedən müharibənin əsas detallarını açıqlayıb və sülh danışıqlarının hansı səbəbdən müharibə ilə əvəz olunmasinin mahiyyətini dünya ictimaiyyətinə çatdırıb. Adamlar tez-tez soruşurlar ki, nə üçün bu münaqişənin həlli belə uzun müddətdir ki, reallaşmır. Hamı səbəb axtarır, amma cavab tapa bilmirdi. İndi isə vəziyyət 180 dərəcə dəyişib və heç bir danışıqdan söhbət belə gedə bilməz, çünki silahlar guruldayır və cəbhədə ağır döyüşlər gedir. Regiondan kənarda yaşayan adamlar yenə sual edirlər: axı, niyə? "Əl-Cəzirə"nin jurnalisti də müsahibəyə bu sualla başlayır və dəqiq, konkret faktlarla cavab alır.

"Əsas səbəb odur ki, Ermənistan sülh istəmir. Onlar bizim torpaqları həmişəlik işğal altında saxlamaq istəyirlər. Onlar status-kvonu dəyişmək istəmirlər və bu da münaqişənin bu qədər uzun çəkməsinin səbəbidir. Əgər Ermənistan iradə göstərsəydi və əsas beynəlxalq təşkilatların qətnamələrinə uyğun şəkildə davransaydı, münaqişə uzun illər bundan əvvəl həll edilmiş olardı" – deyə, Azərbaycan Prezidenti deyir.

Prezident haqlıdır. Ən nüfuzlu beynəlxalq təşkilat olan BMT-nin erməni qoşunlarının işğal etdikləri Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxmaları haqda 4 qətnaməsi üç onilliyə yaxındır ki, qəsbkarlar tərəfindən yerinə yetirilmir. Bu tip qətnamələri İƏT, digər beynəlxalq təşkilatlar, Avropa təsisatları da bir neçə dəfə qəbul edib. Ayrı-ayrı dövlət rəhbərləri dəfələr münaqişənin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində həll edilməli olduğunu bildirib. Amma təcavüzkar bütün rəsmi sənədləri və çağırışları qulaqardına vurub.

Müsahibədə jurnalist "məxməri" inqilab məsələsinə də toxunur və bu aspektdən Ermənistanın müharibəni alovlandırmaq riskinin aşağı olması fikrini irəli sürür. Lakin onun aldığı cavab baş verən faktlara söykənən və reallığı əks etdirən siyasi təhlil olur.



"Əgər son iki ildə "inqilab"dan sonra Ermənistanın nə etdiklərinə və nə bəyan etdiklərinə nəzər salsaq görərik ki, onlar bizi həmişə təhrik ediblər və yeni müharibəyə başlamağı hədəfə alıblar və bunun səbəbi danışıqları tamamilə pozmaq idi. Onlar Azərbaycana qarşı bir neçə hərbi təxribat törədiblər. İyulun 12-də onlar münaqişə regionundan çox uzaqda olan Tovuz rayonunda, Azərbaycanın qərbində, Ermənistan-Azərbaycan sərhədindəki kəndlərimizə və hərbi mövqelərimizə hücum ediblər. Onların bunu nə üçün etdiklərini başa düşmək çox çətin idi. Onlar ağır artilleriya ilə bizə hücum etdilər. Hərbi qulluqçular arasında ilk itkiləri Azərbaycan tərəfi verdi. Bizim dörd hərbi qulluqçumuz və 76 yaşlı bir kəndli dərhal öldürülmüşdür" - iki ay əvvəl baş verən hadisələrdən danışan dövlətimizin başçısı bugünkü müharibənin əsas günahkarını da insanlara tanıdır. Müharibə əslində erməni təcavüzünün aradan qaldırılması, Azərbaycan əhalisinin təhlükəsizliyini gücləndirmək üçün görülən tədbirdir. Əks halda düşmən daha da irəliləyə, Azərbaycanın yeni ərazilərini ilhaq etməyə başlayardı. Necə ki, sentyabrın 4-də döyüş meydanında udusduğunun əvəzini Gəncə şəhərini bombalamaqla çıxmağa çalışıb. Nəticədə isə şəhərdə xeyli dağıntı olub, 1 nəfər ölüb, 4 nəfər isə ağır yaralanıb. Yaralananlardan biri isə Gəncədə yaşayan erməni əsilli, yaşlı qadındır. Fikir verirsinizmi, təcavüzkar əməllərinə görə cəzasız qaldıqca daha da fəallaşır. İlham Əliyev də müsahibəsində izah edir ki, Tovuz təxribatına beynəlxalq təpki total olmadığından avqust ayında düşmənin diversiya qrupu Azərbaycanın içərilərinə daxil olub yeni təxribatlar törətmək istəyib. Qrupun başçısı Azərbaycan hərbçiləri tərəfindən ələ keçirilib və o, hər şeyi etiraf edib. Bunun dalınca sentyabrın 27-də yenə ərazilərimiz top atəşlərinə məruz qalıb və daha səbri tükənən və düşmənin danişıqları pozmaq qəsdinin qəti olması ordumuzun əks-hücuma keçməsinin əsas səbəbi olub.

Azərbaycan Prezidenti baş verən təxribatların səbəbini də açıqlayır: "Birincisi, hesab edirəm ki, onlar danışıqlar prosesini tamamilə məhv etmək istəyirdilər. Sonra onlar etdikləri kimi, buna görə bizi günahlandırmaq və "baxın, Azərbaycanla danışıqlar aparmaq mümkün deyil" söyləmək istəyirdilər. Hesab edirəm ki, səbəblərdən biri də onların daxili çətinlikləri ola bilər. Çünki biz indi Ermənistanda baş verənləri bilirik. Onlar çox ciddi siyasi böhrandan əziyyət çəkirlər".

Döyüşlər alovlanıb, Azərbaycan ordusu düşmən cəbhəsini yarıb, sürətlə irəliləyir. Dünya ictimaiyyəti bilmək istəyir ki, Azərbaycan bu gedişlə nə edəcək, yəni, İrəvana qədər gedib çıxmayacaq ki?! Yox, daim sülhsevər siyasət yeridən Azərbaycan Prezidenti və Ali Baş Komandanı İlham Əliyev öz amallarına sadiqdir: "Bizim mövqeyimiz dəyişməz olaraq qalır. Mənim tələb etdiklərim tamamilə beynəlxalq hüquqa müvafiqdir, çünki bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır və dünyanın heç bir ölkəsi "Dağlıq Qarabağ respublikası"nı tanımır. Mənim söylədiyim sözlər demək olar ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin mətnidir. Onlar bizim ərazilərimizi tərk etməlidir və yalnız ondan sonra müharibə dayanacaq, münaqişəyə son qoyulacaq. Ola bilsin müəyyən müddət keçdikdən sonra Ermənistan və Azərbaycan xalqları sülh şəraitində birlikdə yaşaya biləcəklər. Bu, bizim mövqeyimizdir və o, dəyişməzdir. Bu, tarixi həqiqətə, beynəlxalq hüquqa və həmçinin düşünürəm ki, regionumuzdakı bu günün siyasi və geosiyasi reallıqlarına əsaslanır. Hesab edirəm ki, Ermənistan hökuməti özlərinin qlobal arenada "əhəmiyyətinə", onlara göstərilə biləcək mümkün beynəlxalq dəstəyə həddindən artıq böyük qiymət veriblər və bizi təhrik etməklə, bizə hücum etməklə böyük səhvlərə yol veriblər. İndi də onlar ciddi məğlubiyyət acısını yaşayırlar".

Necə deyərlər, "düzü düz, əyrini əyri", Prezident İlham Əliyev üç böyük dövlətin həmsədrliyi ilə ATƏT-in Minsk qrupunun edə bilmədiyini Azərbaycanın təkbaşına edə bilmək qabiliyyətində olduğunu sübut edir və bunu beynəlxalq aləmə izah edir. İndi stol üzərində sülh danışıqları yox, Ermənistanın qara niyyətləri var. Buna görə də Azərbaycan qara niyyətlərin sülh göyərçinlərinin kölgəsində itirməyin anatomiyasını müsahibədə aydınlaşdırıb. Bu yolda xalqımız, dövlətimiz dönməzdir və tezliklə azadlıq və sülh bayrağının Qarabağ bölgəmiz üzərində dalğalanacağının anonsunu hamıya çatdırmaqla Ermənistanın əsas mahiyyətinin nədən ibarət olduğunu da anladıb.

**N.NOVRUZ**